# MÜASİR AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN İŞGÜZAR ÜSLUBU

*

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NƏSİMİ adına DİLÇİLİK İNSTİTUTU

# MÜASİR AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN İŞGÜZAR ÜSLUBU

*(oçerklər)*

MƏSUD MAHMUDOVUN ŞƏXSİ KİTABXANASINDAN

Bakı – Elm – 2004

Azərbaycan MEA Nəsimi adına Dilçilik İnstitutunun kitabxanası
İnv. № 3022

Redaktor: *filologiya elmləri doktoru, professor* **M.B.Məmmədov**

Rəyçilər: *filologiya elmləri doktoru, professor* **A.Q.Ələkbərov,** *filologiya elmləri doktoru* **S.A.Sadıqova**

**Müasir Azərbaycan ədəbi dilinin işgüzar üslubu** (oçerklər). Bakı: Elm, 2004. – 196 səh.

ISBN – 5-8066-1643-4

Əsər Nəsimi adına Dilçilik İnstitutunun əməkdaşlarının dilimizin ayrı-ayrı sahələrdə düzgün işlənilməsinə, ədəbi dil normalarına əməl olunmasına nəzarət etmək və səmərəli tövsiyələri ilə kömək etmək məqsədilə nazirlik və komitələrdə apardıqları müşahidələri əsasında hazırlanmışdır. Kitabda Respublikamızın müxtəlif nazirliklərinin dəftərxana işlərinin, yazışmalarının, müvafiq sənədlərinin dilinin leksik-terminoloji və qrammatik xüsusiyyətləri araşdırılır, ümumiləşdirilir, ədəbi dil normalarının pozulması halları göstərilir, nöqsanların aradan qaldırılması üçün təkliflər verilir.

Respublikamızda ilk dəfə hazırlanmış bu əsərdə müasir Azərbaycan dilinin işgüzar üslubu haqqında geniş oçerklə yanaşı, parlament sənədlərinin, hərbi sənədlərin, mənzil-kommunal təsərrüfatı sənədlərinin, əmək və əhalinin sosial müdafiəsinə aid sənədlərin və habelə məhkəmə, səhiyyə, ticarət və rabitə sənədlərinin dili ədəbi dil normaları baxımından təhlil olunur.

$$M\frac{4601000000}{655(07)-2004}$$

© «Elm» nəşriyyatı, 2004

## MÜNDƏRİCAT

Bir neçə söz ........ 4

Müasir Azərbaycan ədəbi dilinin işgüzar üslubu ........ 6

Prezident aparatı və parlament sənədlərinin dili ........ 38

Hərbi sənədlərin dili ........ 56

Mənzil-Kommunal Təsərrüfatı Komitəsinin sənədlərinin dili ........ 65

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sənədlərinin dili ........ 93

Məhkəmə sənədlərinin dili ........ 120

Səhiyyə Nazirliyinin sənədlərinin dili ........ 143

Ticarət Nazirliyinin sənədlərinin dili ........ 160

Rabitə Nazirliyinin sənədlərinin dili ........ 174

## BİR NEÇƏ SÖZ

Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa etdikdən sonra ana dilimizin də hərtərəfli inkişafı üçün geniş imkanlar açıldı, onun dövlət dili olaraq həyatımızın bütün sahələrində işlənilməsi üçün lazımi şərait yarandı. Dilimizin fəaliyyət dairəsi daha da genişləndi. Respublikamızın bütün nazirliklərində, ayrı-ayrı komitə, idarə və təşkilatlarda yazışmalar, dəftərxana işləri bu gün ana dilimizdə - Azərbaycan dilində aparılır. Dilimizə dövlət qayğısı gündən-günə artır. "Azərbaycan Respublikasında Dövlət dili haqqında Azərbaycan Respublikasının Qanunu" dilimizin daha da inkişafı, zənginləşməsi, funksional-üslubi imkanlarının genişlənməsi üçün dövlət nəzarətinin güclənməsini, onun Konstitusiya ilə təsbit edilən hüququnun qorunmasını təmin edir.

Azərbaycan dilinin işlənməsi üzrə Dövlət Komissiyası bu sahədə müntəzəm iş aparır. Respublika Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun kollektivi də bu istiqamətdə müəyyən işlər görür: dilimizin elmi-nəzəri problemlərinin tədqiqi ilə yanaşı, onun praktik məsələlərinin həlli ilə də məşğul olur: ayrı-ayrı sahələrdə Azərbaycan dilinin düzgün işlənilməsinə, ədəbi dil normalarına, üslubi tələblərə düzgün əməl olunmasına çalışır, yerlərdə əməli tədbirlər keçirir, dəftərxana işlərinə kömək edir, səmərəli təkliflər verir.

Oxuculara ilk təşəbbüs kimi təqdim edilən bu kitab da görülmüş tədbirlərin, əməli işlərin nəticəsində yaranmışdır. İnstitutun işçiləri 1994-cü ildə respublikamızın ayrı-ayrı nazirliklərində dəftərxana işləri ilə tanış olmuş, yazışmaların, müvafiq sənədlərin dili ilə maraqlanmışlar. Uzun illər rus dilində aparılan yazışmaların – əmrlərin, sərəncamların, protokolların, ərizə və hesabatların bugünkü vəziyyətini öyrənmiş, işgüzar üslubun bu idarə yazışmalarında-sənədlərində Azərbaycan dilinin qayda-qanunlarına əməl edilib-edilməməsinə diqqət vermişlər. Məlum



olmuşdur ki, təhsil, səhiyyə, rabitə, ticarət, əmək və əhalinin sosial müdafiəsi nazirliklərində, mənzil-kommunal təsərrüfatı komitəsində sənədlər – yazışmalar əsasən, Azərbaycan dilində aparılır, dilimizin düzgün işlənilməsinə qayğı göstərilir və bəzi terminlər milli terminlərlə əvəz olunur, bu sahədə yeniləşməyə meyl göstərilir. Əsərdə Azərbaycan ədəbi dilinin işgüzar üslubunun əsas mahiyyəti, ona daxil olan ayrı-ayrı sahələrdə sənədlərin, yazışmaların dilinin leksik, sintaktik xüsusiyyətləri faktlar əsasında göstərilir.

Kitabın bölmələri filologiya elmləri doktorları *Müseyib Məmmədov* (Müasir Azərbaycan ədəbi dilinin işgüzar üslubu), *Əbdürrəhman Cavadov* (hərbi sənədlərin dili), filologiya elmləri namizədləri *Durna Mehdiyeva* (Prezident aparatı və Parlament sənədlərinin dili), *Qüdrət Cəfərov* (Mənzil-kommunal Təsərrüfatı Komitəsi sənədlərinin dili), *Sənubər Abdullayeva* (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sənədlərinin dili), *İntizar Salehova* (Məhkəmə sənədlərinin dili), *Sevinc Həbibova* (Səhiyyə Nazirliyi sənədlərinin dili), *İradə Vəlibəyli* (Ticarət Nazirliyi sənədlərinin dili) və *Şəlalə Qasımova* (Rabitə Nazirliyi sənədlərinin dili) tərəfindən yazılmışdır.

Kitaba daxil edilmiş bölmələr Azərbaycan dilinin işlənildiyi müxtəlif sahələrə - idarələrə aid olduğu və ayrı-ayrı müəlliflər tərəfindən yazıldığı üçün onları müstəqil hissələr şəklində verməli olduq.

Oxucuların nəzərinə çatdırmağı lazım bilirik ki, əsər 1995-ci ildən nəşriyyata təqdim edildiyindən gətirilən faktlar, söylənilən mülahizələr dövlət və hökumət idarələrindəki hazırkı vəziyyətə tam uyğun gəlməyə də bilər.

Kitabın əlyazmasını oxuyub faydalı məsləhətlər vermiş və onun çapı üçün rəy yazmış filologiya elmləri doktorları Aydın Ələkbərov və Sayalı Sadıqovaya minnətdarlığımızı bildiririk.

***Redaktor***

# MÜASİR AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN İŞGÜZAR ÜSLUBU

Ədəbi dilimizin müasir mərhələsində geniş ictimai ünsiyyət dairəsinə malik olan funksional üslublar içərisində işgüzar üslub xüsusi yer tutur. Dilçilik ədəbiyyatında bu üslub müxtəlif müəlliflər tərəfindən "rəsmi üslub", "işgüzar üslub", "rəsmi-işgüzar üslub", "işgüzar dil", "işgüzar nitq", "rəsmi-sənəd dili", "qanunların dili", "epistolyar üslub", "rəsmi-işgüzar kağızların dili" və s. adlandırılmışdır. Belə bir termin müxtəlifliyi həm rus dilçiliyində, həm də türkologiyada bu gün də davam etməkdədir. Biz "işgüzar üslub" terminini daha münasib hesab edirik. Son illər bu üslubun bütün idarə və təşkilatlarda daha işlək olması da buna bir növ əsas verir.

İşgüzar üslubun təşəkkülü dilimizin qədim dövrlərinə gedib çıxır. Məlumdur ki, XV əsrdə Şah İsmayıl Xətainin başçılıq etdiyi Səfəvilər dövləti zamanı Azərbaycan dili dövlət dili qəbul olunmuşdur. Ə.M.Dəmirçizadə bu barədə yazır: "Azərbaycan ədəbi dili dövlət idarələrində, hərbi hissələrdə işlənən rəsmi dillər sırasında yer tutdu... Azərbaycan ədəbi dili geniş surətdə işlənən bir rəsmi dil olaraq, digər dillərə, o cümlədən ərəb və fars dillərinə də təsir etməyə başlamışdır".[1]

Xətai dövründə diplomatik danışıqlar və yazışmalar da Azərbaycan dilində aparılmışdır. Onu da deyək ki, bu dil rəsmi dövlət dili olmaq hüququnu XVII əsrdə də qoruyub saxlaya bilmişdi. Buna görə də özlüyündə aydındır ki, ədəbi dilimizin başqa üslubları kimi işgüzar üslubun da özünəməxsus tarixi inkişaf yolu olmuşdur. Azərbaycan dilinin üslubiyyatına dair əsər yazmış müəlliflərdən, ədəbi dilin funksional üslublarının təsnifçilərindən ilk dəfə Ə.Dəmirçizadə bu üslubu "ictimai-siyasi üslub" adlandıraraq onu belə səciyyələndirmişdir: "İctimai-siyasi üslubun

[1] *Dəmirçizadə Ə.* Azərbaycan ədəbi dili tarixi (I hissə), Bakı, 1979, s.167.



əsasını hamı üçün eyni dərəcədə aydın anlaşılan sözlər və ifadələr təşkil edir: burada məcazi mənalılıq, obrazlılıq və terminlik bir sistem ola bilməz, lakin bunların tək-tək xüsusi nümunələrindən istifadə etmək bu üslub üçün qanuni və təbii sayılır".[1]

Ə.Dəmirçizadə "bədii, elmi və ictimai-siyasi təfəkkür tərzlərinə müvafiq olaraq" üç üslub göstərir: 1. Bədii təfəkkür sistemi-bədii üslub; 2. Elmi təfəkkür sistemi - elmi üslub; 3. İctimai-siyasi təfəkkür sistemi - ictimai-siyasi üslub.

Ə.Dəmirçizadə ictimai-siyasi üslub haqqında danışarkən yazır: "Üslublar silsiləsində daha kütləvi və sadə, daha aktiv və işlək üslub ictimai-siyasi üslubdur. Bu üslub ailədən başlayaraq ümumxalq yığıncağına qədər, xüsusi məktublardan başlayaraq qəzet səhifələrinə qədər, adi şəhadətnamədən başlayaraq diplomatik sənədlərə qədər çox müxtəlif ictimai sahələrdə işlədilən geniş nüfuz dairəli bir üslubdur. Siyasi-ictimai mövzularda yazılan əsərlər, söylənilən nitqlər, iqtisadi-siyasi və hüquqi münasibətlərdə, dövlət idarələrində, məhkəmələrdə və ticarət əlaqələrində aparılan yazışmalar və danışıqlar məhz ictimai-siyasi üslubda olur". Müəllif daha sonra göstərir ki, bu üslub daha çox əməli üslubdur və onun şifahi növü daha işləkdir. İcrası, izahı və həlli tezliklə tələb olunan hər cür - ictimai, siyasi, iqtisadi, həyati, təcrübi cari məsələlər haqqında mülahizələr, mübahisələr, əmrlər, qərarlar, şüarlar və nizamnamələr məhz bu üslubda qurulur. Ə.Dəmirçizadə ictimai-siyasi üslubun iki əsas - rəsmi və qeyri-rəsmi budağı olduğunu göstərir. Maraqlıdır ki, o, rəsmi budağın dövlət idarələrində, dövlət sənədlərində işlənildiyini qeyd edərkən qeyri-rəsmi budağın daha geniş olduğunu söyləyir və buraya ailədə, yığıncaqlarda, məclislərdə olan danışıqları, ümumi məsələlərdən bəhs edən qəzet məqalələrini daxil edir.

[1] *Ə.Dəmirçizadə.* Azərbaycan dilinin üslubiyyatı. Bakı, 1962, s.37.

Rəsmi üslubun təşəkkülü və formalaşması haqqında ətraflı məlumat T.İ.Hacıyevin ədəbi dilimizin tarixinə aid yazılmış əsərlərində verilmişdir.

T.İ.Hacıyev "Azərbaycan ədəbi dili tarixi"ndə (II hissə, B., 1987) XIX əsrdə (əsrin ikinci yarısında və XX əsrin əvvəllərində) ədəbi dil sistemində real şəkildə fəaliyyət göstərən "rəsmi üslub" haqqında tarixi aspektdə geniş bəhs edir. O, rəsmi üslubun leksik və sintaktik xüsusiyyətlərini tarixi sənədlər əsasında səciyyələndirir və göstərir ki, bu vaxt, rus dilinin dövlət dili olması ilə bağlı, sənədlərin dilində rusizmlər işlənsə də, yenə ərəb, fars mənşəli sözlər üstünlük təşkil edir. Üslubun formalarının hər birində (iltizamnamə, təməssüknamə, elamnamə, icarənamə, dəvətnamə, ərizənamə və s.) qəlib-sintaqmın dominant vahidi ərəb sözüdür" (s.151). Müəllif belə işlənilməni üslubun vacib tələbi hesab edir, "çünki bu rəsmi sənədlər rəsmi şəxslərə, dövlət dairələrinə, nüfuzlu kəslərə yönəldiyindən onlara hörmət əlaməti kimi qəliz yazılmaq rəva bilinir" (s.151). Bu sənədlərin müəyyən qaydada yazılması üçün standart formalar müəyyənləşdirilir. Maraqlı bir fakt kimi əsərdə M.Ə.Vəzirovun "Uçebnik tatarsko-azerbidjanskoqo nareçiya" kitabının 131-157-ci səhifələrində bu sənədlərin surətlərinin verildiyini qeyd edir. Onlar bu sənədlərdir: vərəqeyi-məkşuf, iltizamnamə, təməssüknamə, qəsəmnamə, vəkalətnamə, şəraxətnamə, istişhadnameyi-nisbiyyə, şəhadətnameyi-minadiyə, elamnamə, icarənamə, həbbənamə, şərtnamə, vəsiyyətnamə, ibrətnamə, dəvətnamə, məhəbbətnamə, cavabnamə, nəsihətnamə, ərizənamə, təliqnamə, surəti ehkamdır, surəti-fəramindir, padşah padşaha yazan məktub surətidir, sülhnamə və s.

T.İ.Hacıyev həmin əsərində XX əsrin əvvəllərində üslubların mənzərəsini verərkən bədii üslub, publisist üslub, elmi üslub, şəriət üslubu, rəsmi-epistolyar üslub adı ilə beş üslub növü göstərmişdir. Göründüyü kimi, bizim müasir ədəbi dilimizdə "işgüzar" adlandırdığımız üslub "rəsmi-epistolyar" üslub şəklində verilmişdir. Onu da de-



yək ki, müəllif bu üslubu iki qola ayırır. 1) sənədlərin, rəsmi dövlət və idarə kağızlarının, elanların və s. dili; 2) məktubların, şəxsi yazışmaların dili (s.244). Rəsmi sənəd dilində standartların, qəliblərin, vahid formaların vacibliyini qeyd edən müəllif yazır ki, XX əsrin əvvəllərində Azərbaycan dili dövlət dili olmadığından bu üslub zəif çıxış edir. "Bu üslubdan dövlət müəssisələrindən çox, ayrı-ayrı mətbuat orqanlarında istifadə olunur: elanlar, müqavilələr, reklamlar çap edilir. Təbii ki, belə halda hər mətbuat orqanı öz dil normasını rəhbər tutur və bununla da rəsmi-kargüzarlıq dilinin mahiyyəti korlanır, standartçılıq prinsipi pozulur.[1]

XIX əsrin sonu və XX əsrin əvvəllərində ədəbi dilin rəsmi üslubunun ümumi mənzərəsi belə olmuşdur. Lakin yuxarıdakı rəsmi sənəd adlarından belə bir fərəhli nəticə özlüyündə aydın olur ki, idarə və müəssisələrdə işlənən dəftərxana terminləri, sənəd adları nə qədər dəyişib azərbaycanlaşmışdır. XX əsrin 30-40-cı illərində rəsmi sənədlərin dilindəki ərəb, fars sözləri azalır və rusizmlər çoxalır. Həmin sənədlərin dilində Azərbaycan dili sözləri öz qanuni yerini tutmağa başlayır. Sonrakı onilliklərdə respublikanın ayrı-ayrı idarələrində yazışmalar müvafiq sənədlər əsasən Azərbaycan dilində hazırlanır və tərtib edilirdi. Onu da deyək ki, son illər orta məktəb dərsliyində də funksional üslublardan danışılarkən bu üslubların bir növü kimi bu sahəyə də müəyyən yer verilmiş və "işgüzar üslub" termini işlənmişdir.

Ədəbi dilimizin sovet dövründən bəhs edən yazılarında A.Məhərrəmov belə bir fikirdədir ki, "rəsmi üslub ancaq sovet dövründə yaranmış və inkişaf etmişdir".[2] Bu fikri söyləməkdə, əlbəttə, o, rəsmi üslubun müasir vəziyyətini nəzərdə tutmuşdur. N.Xudiyev Azərbaycan ədəbi dili-

---

[1] *T.İ.Hacıyev*. Azərbaycan ədəbi dili tarixi (II hissə). Bakı, 1987, s.244.

[2] *A.Məhərrəmov*. Azərbaycan ədəbi dilinin sovet dövrü. Bakı, 1961, s.13-14.

nin sovet dövrünə həsr etdiyi əsərində bədii, elmi, publisist, epistolyar üslublar sırasında rəsmi üsluba da müəyyən qədər (yığcam şəkildə) yer vermişdir. O, 1920-1940-cı illərdə rəsmi üslubda ərəb, fars dili elementləri ilə zəngin olan klassik ifadə tərzinin qaldığını, bu üslubun leksikasında alınmalara üstünlük verildiyini, sintaksisdə isə bir qayda olaraq klassik ifadə tipinin mövcudluğunu söyləyir, rəsmi üslubun başqa üslublarla əlaqəsinin məhdudluğunu qeyd edir, 1940-cı illərdən etibarən rəsmi üslubun istər sintaktik, istərsə də leksik quruluşca tədricən demokratikləşdiyini, xalq dilinə yaxınlaşdığını göstərir.[1]

İşgüzar üslub 1980-ci ildə R.Ə.Adilovun "Müasir Azərbaycan ədəbi dilinin rəsmi üslubu" adlı namizədlik dissertasiyasında sinxron planda tədqiq olunmuşdur. Yeri gəlmişkən onu da deyək ki, R.Ə.Adilovdan əvvəl, 1972-ci ildə N.İ.Yerqazıyeva "Qazax dilində rəsmi-işgüzar üslubun formalaşması və inkişafı", 1987-ci ildə isə D.A.Babaxanova "Müasir özbək ədəbi dilinin rəsmi-işgüzar üslubu" mövzularında namizədlik dissertasiyaları müdafiə etmişdilər. (Rus dilçiliyində də bu mövzuya aid kifayət qədər tədqiqat işləri mövcuddur). Bu tədqiqatların hər üçündə (birində "rəsmi üslub", ikisində "rəsmi-işgüzar üslub" adı ilə) işgüzar üslubun leksik və qrammatik xüsusiyyətləri araşdırılır, işgüzar üslubun səciyyəvi xüsusiyyətləri müəyyənləşdirilir, bu üslubun əhatə etdiyi sahələr, onun işlək dairəsinin genişliyi göstərilir.

R.Ə.Adilovun tədqiqatında* bu üslub, başlıca olaraq, rəsmi dövlət sənədləri əsasında araşdırılmışdır. Tədqiqat obyekti kimi qərarlar, nizamnamələr, hüquq sənədləri, fərmanlar götürülür. "Rəsmi üslub" adlandırılan bu əsərdə işgüzar üslubun yalnız bir hissəsi əhatə olunmuşdur. Belə ki, işgüzar üslubun əhatə etdiyi bəzi sahələr, müxtəlif dəf-

[1] Bax: *N.Xudiyev*. Azərbaycan ədəbi dilinin sovet dövrü. Bakı, 1989, s.61-62.

* Bu iş sonralar "Azərbaycan dilinin üslubları" (Bakı, 1990) adlı kitabda çap olunmuşdur.



tərxana sənədləri, təhsilə, tibbə, rabitəyə, ticarətə, məhkəməyə, elmi idarələrə aid materiallar bu tədqiqatdan kənarda qalmışdır. Bununla belə, müəllif çalışmışdır ki, rəsmi üslubun səciyyəvi xüsusiyyətlərini müəyyənləşdirsin. Rəsmi üsluba aid yazılmış əsərlərin xülasəsini verən müəllif türkdilli xalqlarda funksional üslubların yaranması və inkişafı haqqında N.A.Baskakovun tarixi aspektdə apardığı təsnifatı xatırladır: elmi-kütləvi, bədii, işgüzar və dini üslublar. ...Bu dövrün işgüzar üslubuna qədim uyğur hüquqi sənədləri misal ola bilər. Müəllif, N.A.Baskakovun işgüzar üsluba fərmanları, yarlıqları, müxtəlif diplomatik sənədləri aid etdiyini söyləyir.[1] Sonra rəsmi üslubun leksik, morfoloji və sintaktik xüsusiyyətləri haqqında bəhs edir.

Müəllif rəsmi sənədlər müxtəlif sahələri əhatə etdiyi üçün hər bir qrupa aid olan sənədlərin (diplomatik sənədlərin, hüquqi və rəsmi sənədlərin) leksik xüsusiyyətlərindən ayrıca danışır. Ümumişlək sözlərin (qonaq, danışıq, görüş, tərəf və s.) rəsmi sənədlərin dilində konkretləşərək başqa məna kəsb etməsindən bəhs edən müəllif eyni zamanda rəsmi üslubda ayrı-ayrı sahələrə məxsus xüsusi leksik laylar olduğunu da qeyd edir. Rəsmi üslubun qrammatik xüsusiyyətlərindən danışılarkən felin zamanlarının, şəkillərinin, cümlə üzvlərinin (xüsusilə mübtəda və xəbərin) işlənilməsinin səciyyəvi cəhətləri ön plana çəkilir, onların ifadə formaları göstərilir. Əsərin sonunda "Rəsmi üslubda mətn" bölməsində rəsmi üslubda xüsusi ölçülü-biçimli mətnlərdən nümunələr verilir.

Azərbaycan ədəbi dilinin funksional üslubları və bunların sırasından olan rəsmi üslub haqqında sonuncu yazıya «Azərbaycan ədəbi dili tarixi» kitabında[2] Z.İ.Budaqovanın

[1] *Н.А.Баскаков*. Структурные и функциональные стилистические модификации в современных тюркских языках. - Развитие стилистических систем литературных языков народов СССР. Ашхабад, 1968, с.57-70.

[2] *Bax*: Azərbaycan ədəbi dili tarixi. Bakı, "Elm", 1991.

"Müasir Azərbaycan ədəbi dilinin funksional üslubları" bölməsində rast gəlirik. Müəllif burada rəsmi üslub haqqında deyilmiş fikirlərin qısa xülasəsindən sonra göstərir ki, rəsmi üslubun formalaşmasını və sabitləşməsini..., differensiallaşmasını şərtləndirən ekstralinqvistik faktorun mövcudluğu əsas amillərdən biridir. O, doğru olaraq deyir ki, rəsmi üslubu səciyyələndirən ən mühüm dil xarici amil Azərbaycan dilinin dövlət dili səviyyəsinə yüksəlməsidir. Z.İ.Budaqova rəsmi üslubun bir neçə xarakter cəhətini (dilinin "quruluğu", müəyyən leksik və qrammatik formaların təkrarlanması və işləkliyi, standartların, ştamp şəkli almış ifadə və formaların mövcudluğu, dəftərxana sözlərinin çoxluğu və s.) göstərdikdən sonra bu üslubun spesifik leksik və qrammatik xüsusiyyətlərini ayrılıqda nəzərdən keçirir. Müəllif yazır: "Rəsmi üslubun leksik cəhətdən dominant xüsusiyyəti ondan ibarətdir ki, orada hazır klişe və ştamp şəkli almış xüsusi dəftərxana terminologiyasından geniş istifadə olunur".[1] Rəsmi üslubun qrammatik xüsusiyyətlərindən bəhs edilərkən göstərilir ki, rəsmi üslubun differensiallaşmasında əvəzliyin, sayın ikinci dərəcəli əhəmiyyəti olduğu halda, felin zaman, növ və şəkil kateqoriyaları həlledici rola malikdir. Bu üslubda daha çox felin məchul və icbar növlərindən istifadə olunduğunu söyləyən müəllif rəsmi üslubun sintaktik xüsusiyyətlərindən danışarkən deyir: "Rəsmi üslubda, əsasən, sadə cümlənin nəqli və əmr növlərindən geniş istifadə olunur... Çünki rəsmi sənədlərin mətnində ya hər hansı informasiya nəql edilir, ya da hər hansı işin icrasına təhrik olunur". Həmçinin burada göstərilir ki, feli isim tərkibi ilə ifadə olunan həmcins üzvlü sadə cümlələr çox işlənilir. Rəsmi üslubun sintaksisində "Tapşırılsın", "xahiş edilsin", "qərara alınsın" və s. tipli birləşmələrin daha çox işlənilməsi bu üslub üçün xarakterikdir".[2]

[1] Göstərilən əsər, s.276.
[2] Yenə orada, s.278.



İşgüzar üslub haqqında (bəzən rəsmi üslub adı ilə) yazılanların qısa xülasəsi belədir. Deyilənlərdən aydın olur ki, ədəbi dilimizin üslublar sistemində fəaliyyət göstərən bu üslub da müəyyən tarixi inkişaf yolu keçmiş, dilxarici və dildaxili amillərin təsiri ilə son dövrlərdə onun işləkliyi artmış, özünəməxsus xüsusiyyətləri daha da müəyyənləşmişdir.

"İşgüzar üslub" termininə üstünlük verməyimizin əsas səbəbi odur ki, "rəsmi üslub" dedikdə işgüzar üslubun fəaliyyət göstərdiyi sahələr yalnız qismən əhatə edilmiş olur. Bizi maraqlandıran obyekt tam ehtiva olunmur. İşgüzar üslub mətnlərinə daxil olan sənədlər təxminən bunlardır: dəftərxana sənədləri, hökumət qərarları, parlament və prezident fərmanları, qanunları, sərəncamları, diplomatik sənədlər, rəsmi yazışmalar, kodekslər, konstitusiya, təhsilə və tibbə aid sənədlər, məhkəmə sənədləri, ticarət müqavilələri, rabitə sənədləri, hərbi sənədlər, kənd təsərrüfatı, sahə nizamnamələri, göstəriş və təlimatlar, müxtəlif idarə və nazirliklərin yazışması, tövsiyələr, məktublar, ərizələr, əmr və protokollar, aktlar, xarakteristikalar, etibarnamələr, arayışlar, təqdimatlar, iltizamnamələr, müqavilələr və s.

Bu sənədlərin müxtəlifliyini, hər birinin leksik və qrammatik xüsusiyyətlərini nəzərə alaraq, işgüzar üslubu yarımüslublara-qollara (diplomatiya, hüquq, təhsil, rabitə, ticarət və s. sahələrlə əlaqədar) ayırmaq mümkündür. Bu yarımüslubların hər birinin özünəməxsus xüsusiyyətləri olsa da (ayrı-ayrı söz və ifadələrin işlənməsi və sintaktik konstruksiyalar nəzərdə tutulur), onları birləşdirən bir ümumi xüsusiyyət var. Bu yarımüslubları işgüzar üslubun ümumi tələbləri birləşdirir.

İşgüzar üslub başqa üslublardan birinci növbədə leksik xüsusiyyətləri ilə fərqlənir. Burada konkret sahələrə aid sözlər, terminlər işlədilir.

İşgüzar üslubun aydın səciyyəsini vermək üçün publisist, bədii, işgüzar və elmi üslubların hər birinə aid kiçik

bir mətn nəzərdən keçirək. Publisist üsluba aid:

"Azərbaycan dilinin dövlət dili kimi bütün hüquq və səlahiyyətini elmi əsaslarla, ağıl və məntiqlə, kompaniya şəklində yox, həmişə, hər saat, hər gün müntəzəm və ardıcıl, xalqın arzusuna, tələbinə müvafiq və dilin ahənginə uyğun şəkildə qorumalıyıq. Bu müqəddəs ruhun ləyaqətini gözləmək, onun paklığı və gözəlliyi qayğısına qalmaq, onun əzəməti və sehrkar qüdrəti qarşısında səcdə etmək hamımızın borcu və mənəvi vəzifəsidir" ("Xalq qəzeti" 15 yanvar 1993-cü il).

Bədii üsluba aid: "Üfüqdə közərən günəşi qızıl donlu topa-topa buludlar ağır-ağır yola salırdı. Əl-ayaq yığışan vaxtı idi. Hava sınmışdı. Qürub edən günəşdən ətrafa sanki bir küsgünlük çilənirdi.

Qarşıda nizamla düzülən qocadan-qoca Qaf dağları nağıla, əfsanəyə bürünmüşdü. Ətraf düzənlik və dərə-təpə idi. Bu tərəflərdə məskən salmış Qazax elləri yaşıllıqlar içində itib batırdı". (Fərman Eyvazlı. "Qaçaq Kərəm", roman. Bakı, 1986, s.210).

İşgüzar üsluba aid: "Yuxarıda göstərilənlərə əsasən əmr edirəm:

1. Respublika ümumtəhsil məktəblərində sinifdən-sinfə keçirmə və buraxılış imtahanlarının nəticələri haqqında ümumtəhsil məktəbləri şöbəsinin arayışı nəzərə alınsın.

2. Naxçıvan MR təhsil naziri, Bakı BTİ-nin rəisi, Gəncə Tİ-nin rəisi, rayon (şəhər) təhsil şöbəsi müdirləri:

- əmri 1993-94-cü ilin nəticələri baxımından geniş müzakirə etsinlər, orada nöqsanlara yol verildiyi qeyd olunan məktəblər haqqında tədbir görsünlər;

- imtahanların nəticələrinə aid materiallardan avqust konfranslarının müvafiq bölmə iclaslarında istifadə olunmasına xüsusi diqqət yetirsinlər;

- məktəb rəhbərlərinin təlim-tərbiyə prosesinə nəzarətini yaxşılaşdırmaq üzrə tədbirlər həyata keçirsinlər;

- ümumtəhsil məktəbinin nümunəvi Əsasnaməsinin və məktəb haqqında digər normativ sənədlərin öyrənilməsini və tətbiqini təmin etsinlər;

- şagirdlərin biliyinin qiymətləndirilməsində müəllimlərin məsuliyyətini artırsınlar.

3. Ümumi orta, texniki-peşə təhsili və məktəbəqədər tərbiyə müəssisələri Baş idarəsi (A.Muradov).

EMM ilə birlikdə:

- fənlərin tədrisi vəziyyətini və şagirdlərin bilik keyfiyyətini yaxşılaşdırmaq üzrə müntəzəm tədbirlər həyata keçirsin, məktəb yoxlamaları zamanı bu məsələyə xüsusi diqqət yetirsin;

- buraxılış imtahanlarının test üsulu ilə keçirilməsi üzrə ayrı-ayrı məktəblərin təcrübəsini öyrənsin və müvafiq təkliflər hazırlasın.

4. Təhsil Problemləri üzrə Respublika Elmi-Metodiki Mərkəz (Ə.Əhmədov):

- 1994-95-ci dərs ili üçün ayrı-ayrı siniflər və fənlər üzrə şifahi imtahan biletlərinin və yazılı imtahan mətnlərinin yenidən işlənib hazırlanmasını təmin etsin.

5. Əmr "Azərbaycan müəllimi" qəzetində dərc edilsin.

6. Əmrin icrası üzərində nəzarət nazir müavini İ.Həsənova həvalə olunur.

Nazir müavini: Ə.Abdinov"

("Azərbaycan müəllimi" q., 13.09.1994).

Elmi üsluba aid: "Azərbaycan dilində bir sıra qrammatik kateqoriyalar vardır ki, bunlar sözlərin bir-birinə bağlanmasında, sözlər arasında əlaqə yaratmaqda çox mühüm rol oynayır. Bu kateqoriyaların bir qismi ümumi xarakter daşıyır. Bunlar yalnız bir nitq hissəsinə xas olmur, bütün nitq hissələrini əhatə edir. Dilimizdə ümumi qrammatik kateqoriyalar aşağıdakılardır: 1. Kəmiyyət kateqoriyası. 2. Mənsubiyyət kateqoriyası. 3. Hal kateqoriyası. 4. Xəbərlik kateqoriyası" (M.Hüseynzadə. Müasir Azərbaycan dili. Bakı, 1973, s.44).

Yaxud başqa bir misal: "Qeyri-bərabər elektrik boşal-

malarından istifadə etməklə müasir kompozision materialların yaradılması və sorbentlərin sənaye üçün aktivləşdirilməsi elektrotexnologiyada yenidir. Bu sahə Azərbaycan Respublikası Elmlər Akademiyası Fizika İnstitutunun yüksək gərginliklər texnikası və fizikası laboratoriyasında da intensiv inkişaf etdirilir. Bizdə materialların modifikasiyalaşdırılması üçün kompleks elektrik boşalma metodunun elmi əsasları yaradılmış və tətbiq edilmişdir. Yuxarıda qeyd edildiyi kimi, qeyri-bərabər boşalmalarda bütün tətbiq olunan enerji praktiki olaraq ionlaşmaya, həyəcanlanmaya və molekulların diskolyasiyasına sərf olunur". (Akademik Çingiz Cuvarlı. Elektrotexnologiyada yeni metod - "Elm və həyat" j., 1994, №1, s.23).

Azərbaycan dilinin funksional üslublarına aid verdiyimiz mətnlər həmin üslubların leksik və qrammatik xüsusiyyətləri haqqında müəyyən təsəvvür yaradır. Bu nümunələrdə işlənilmiş sözlər, terminlər, cümlə növləri, söz birləşmələri və bunların hamısının mətnə verdiyi üslubi ton və pafos aydınca sezilir. Publisist üsluba aid verilmiş parçada işlənmiş ictimai mənalı sözlər-terminlər (dövlət dili, hüquq və səlahiyyət, ağıl, məntiq, kompaniya, xalqın arzusu, tələbi, müqəddəs ruh, mənəvi borc və s.), felin vacib şəklində (qorumalıyıq) işlənən sözlər, elmi-məntiqi ardıcıllıq və aydınlıq, səfərbərlik pafosu məhz publisist üsluba xasdır.

Bədii üsluba aid verilmiş parçada isə istifadə olunmuş... "üfüqdə közərən günəş", "qızıl donlu buludlar", "topa-topa", "ağır-ağır", "əl-ayaq yığışan vaxt", "hava sınmışdı", "qürub etmək", "küskünlük", "çiləmək", "nağıla, əfsanəyə bürünmək", "yaşıllıqlar içində itib-batmaq" və s. məcazlaşmış söz və ifadələr əsasən bədiilik və ekspressivliyə xidmət etmişdir. Beləliklə də, bunlar mətnin hansı üsluba aid olmasını aydınca səciyyələndirmişdir.

İşgüzar üsluba aid mətndə işlənilmiş təhsil idarələrinin adları (Bakı Baş Təhsil şöbəsi, Gəncə Təhsil şöbəsi, rayon təhsil şöbəsi, şəxs və vəzifə adları, məktəb, sinif,



imtahan, nümunəvi əsasnamə, elmi metodik mərkəz, Baş idarə və s.), spesifik ifadələr ("nəzərə alınsın", "tədbir görsünlər", "həyata keçirsinlər", "təmin etsin") və s. işgüzar üsluba aid olan standart ifadələrdir.

Nəhayət, elmi üsluba aid verilmiş mətndə ilk anda nəzərə çarpan xüsusiyyət terminlərdir. Burada işlənilmiş "qrammatik kateqoriyalar", "sözlər arasında əlaqə", "mənsubiyyət", "kəmiyyət", "hal", "xəbərlik kateqoriyası", "elektrik", "boşalma", "elektrotexnologiya", "yüksək gərginlik", "enerji", "ionlaşma", "molekulların diskolyasiyası" kimi terminlər məhz ilk növbədə elmi üslubda işlədilir və bu üsluba xasdır. Əlbəttə, bu o demək deyildir ki, mətnlərdən seçib göstərdiyimiz bu sözlər - terminlər yalnız bu və ya digər üslubda işlədilir. Hər bir söz, ifadə, termin lazım gəldikdə başqa üslublarda da işlənilə bilər.

Yuxarıdakı mətnlərin müqayisəsindən bir daha aydın olur ki, işgüzar üslub standart söz və terminlərin işlənilməsi baxımından elmi üsluba daha yaxındır. İşgüzar üslubun ayrı-ayrı qollarında (təhsilə, mədəniyyətə, tibbə, kənd təsərrüfatına aid) müvafiq terminlərin işlədilməsi bu üsluba aid sənədlərin dilində dəqiqlik, aydınlıq yaradır.

İşgüzar üslubun qollarına sırf dəftərxana yazışmalarının, hüquq-məhkəmə, təhsil, ticarət, rabitə, kənd təsərrüfatı, rəsmi, diplomatik sənədlərin, parlament qərarlarının üslubunu aid etmək olar. Bunların hər birinin özünəməxsus leksik sistemi vardır.

Dəftərxana işlərinə aid: idarə, dəftərxana, tabel, ərizə, iş müqaviləsi, işlər müdiri, məktublar dəftəri, kadr, kadr vərəqəsi, kadrlar şöbəsi, kargüzar, kargüzarlıq, iş günü, əmək kitabçası, intizam, əmək intizamı və s.

Diplomatik sənədlərə aid: konsul, səfir, bəyannamə, bəyanat, diplomatik kanal, nota, ultimatum, saziş, müqavilə, viza, dəvətnamə, tərəflər, görüş, elmi səfər, iqamətgah, qəbul, işgüzar, işgüzarlıq, mərasim, əməkdaşlıq, təhlükəsizlik və s.

Hüquq-məhkəmə işlərinə aid: hakim, vəkil, prokuror,



Azərbaycan MEA Nəsimi adına Dilçilik İnstitutunun kitabxanası
İnv. № 5022

cinayətkar, müttəhim, şahid, hökm, qərar, dəlil, məhkəmə iclası, yerli məhkəmə, hərbi məhkəmə, qapalı məhkəmə, məhkəmə icraçısı, iclasçı, həbs qəti-imkan tədbiri, axtarış, qaçqın, terror, qətl, apellyasiya, dövlət hüququ, konstitusiya hüququ və s.

Dövlət qanunvericilik sənədlərinə aid: fərman, qərar, əmr, maddə, müqavilə, saziş, sərəncam, prezident, vitse-prezident, spiker (Milli Məclisin sədri), müşavir, nazir, baş nazir, qanun, əsas qanun (Konstitusiya), sədr, dövlət katibi, iqtidar, müxalifət və s.

Ticarət, maliyyə və rabitəyə aid: menecer, kommersant, avans, biznesmen, sponsor, valyuta, valyuta birjası, birja, lisenziya, səhmdar, smeta, səhmdarlar cəmiyyəti, kiçik müəssisə, müştərək (birgə) müəssisə, ticarət şirkəti, ticarət mərkəzi, milli bank, kommersiya bankı, konvertasiya, dönərli valyuta, ödəniş, ödəniş hesabı, depozit, bank, milli bank, dövlət bankı, gəlir, mühasib, baş mühasib, balans, aliment, büdcə balansı, ödənc balansı və s.

Maarif və təhsilə aid: məktəb, müəllim, orta məktəb, institut, universitet, texniki-peşə məktəbi, internat məktəbi, maarifyanı şura, pedaqoji şura, təhsil şöbəsi, təhsil nazirliyi, litsey, kollec, özəl təhsil (müəssisələri), milli təhsil konsepsiyası, ixtisasartırma kursları, akademiya, orta ixtisas, ali ixtisas, "Təhsil qanunu", pulsuz təhsil, pullu təhsil, ödənişli təhsil, hazırlıq şöbəsi, aspirantura, magistratura, doktorantura və s.

İşgüzar üsluba daxil olan yarımüslubların əhatə etdiyi, daha doğrusu, burada istifadə olunan leksik layın özünün də kiçik qrupları mövcuddur. Məsələn, təhsilə aid leksik vahidləri (bunların əksəriyyəti termin xarakterlidir) təxminən aşağıdakı kimi qruplaşdırmaq olar.

Təhsil müəssisələri (ocaqları): ümumtəhsil məktəbləri, ibtidai məktəb (pillə, I-IV), əsas pillə (V-VIII), orta pillə (IX-XI), məktəb, orta məktəb, internat-məktəb, litsey, gimnaziya, kollec, ali kollec, ali məktəb, pedaqoji məktəb, texniki-peşə məktəbi, pedaqoji institut, universitet, akademiya, ixtisaslaşdırma institutu və s.



Təhsil sisteminin quruluşu və təhsil formaları: məktəbəqədər tərbiyə, ümumi təhsil, ibtidai təhsil, əsas təhsil, orta təhsil, texniki-peşə təhsili, orta ixtisas təhsili, ali ixtisas təhsili, stajkeçmə, ordinatura, magistratura, aspirantura, doktorantura, sərbəst təhsil, ixtisaslaşdırma, kadrların yenidən hazırlığı (təkmilləşdirmə).

Təhsil formaları: istehsalatdan ayrılmaqla (əyani), istehsalatdan ayrılmamaqla (qiyabi), ailədə təhsil, sərbəst təhsil, eksternat təhsil və s.

Təhsillə bağlı söz və birləşmələr: təhsil, təhsil qanunu, təhsil sistemi, təhsil hüququ, fasiləsiz təhsil, pulsuz təhsil, pullu təhsil, təhsil işçisi, təhsil ocaqları, təhsil orqanları, təhsil standartları, təhsil sənədləri, təhsil proqramları, təhsilin demokratikləşdirilməsi, təhsilin humanistləşdirilməsi, təhsilin fərdiləşdirilməsi, təhsilin diferensiallaşdırılması, təhsil kursları, təhsil metodları və s.

Təlim və tədrislə bağlı söz və birləşmələr: təlim, təlim dili, təlim üsulları, əmək təlimi, təlim-tərbiyə, təlim müəssisəsi, təlim-tərbiyə prosesi, təlimin diferensiallaşdırılması, tədris üsulu, tədris kompleksi, tədris yükü, tədris proqramı, tədris məşğələləri, tədris laboratoriyası.

Məktəb, dərs, siniflə əlaqədar söz və söz birləşmələri: məktəb, məktəbli, ümumtəhsil məktəbi, orta məktəb, ali mətktəb, hərbi məktəb, polis məktəbi, məktəb şurası, məktəb nizamnaməsi, məktəbyanı internatlar, məktəb direktoru, məktəb... özünüidarə, məktəb ümumi yığıncağı (konfransı), məktəb komponentləri, məktəb psixoloqu, məktəbin əmək fondu, məktəbin ştat cədvəli, məktəbin hüquqi statusu, məktəb pedaqoji şurası, məktəbin texniki pasportu, dərs, dərs cədvəli, dərs yükü, dərs otağı, sinif, sinif rəhbəri, sinif otağı, sinif jurnalı.

Təhsildə iştirak edən tərəfləri bildirən sözlər: şagird, tələbə, məktəbli, abituriyent, aspirant, doktorant, müəllim, pedaqoq, baş müəllim, dosent, assistent, professor, direktor, dərs hissə müdiri, rektor, prorektor, dekan, kafedra